

# GÖYGÖL: GÖZƏLLƏŞƏN, YENİLƏŞƏN RAYON

**Çiçəklənən Azərbaycanımız çox möhtəşəm və şərəfli bir dövrünü yaşayır. Bu gün ölkəmizdə geniş perspektivləri nəzərdə tutulan nəhəng iqtisadi proqramlar gerçəkləşmiş, yüksək səviyyədə reallığa çevrilərək icra olunmuşdur. Bölgələrdə aparılan davamlı abadlıq-quruculuq işləri, müasir dövrümüzün reallıqlarına çevrilən irimiqyaslı layihələrin icrası sayəsində bütövlükdə respublikada köklü dəyişikliklər baş vermişdir. Təməli əbədiyaşar Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası, yeni modeldə inkişaf mərhələsindədir. Ulu öndərin layiqli davamçısı, praqmatik dövlət başçısı cənab İlham Əliyevin apardığı məqsədyönlü islahatlar və nəhəng layihələr ölkəni sıçrayışlı və davamlı inkişafına çevirərək, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına, onların sosial -məişət və maddi rifah halının yüksəldilməsinə stimul vermişdir. Həyata keçirilən uğurlu iqtisadi siyasət qlobal böhran şəraitində belə, Azərbaycanın hərtərəfli inkişafını təmin etmiş, onun dünyada nüfuz və mövqeylərini gücləndirmişdir.**



Bu gün Azərbaycanın ucqar guşəsində belə, inkişaf göz qabağındadır. Respublikanın qabaqcıl, zəngin tarixə malik, əzəmətli Kəpəz dağının ətəyində, Göy-göl kimi əfsanəvi gölün əhatəsində, səfalı bir dilbər guşədə yerləşən Göygöl rayonunda gedən davamlı inkişaf, rayonun simasını əsaslı surətdə dəyişmişdir. Hər yerdə yenilik və gözəllik göz qamaşdırır. Yüksək zövqlə inşa edilmiş binalar, gözoxşayan, füsunkar təbiəti olan park və istirahət mərkəzləri sakinlərin ürəklərini riqqətə gətirir, qədim ornament və elementləri ilə işlənmiş sosial və ticarət obyektləri bir-birini tamamlayır və şəhərə xüsusi kompozisiya verir. Yüksək tərtibatla salınmış qazonların arasından boylanan tər çiçəklər soyuq günlərdə belə sakinlərə ruhi qida verir.

Göygöl rayonunda son illər sosial obyektlərin tikintisi, abadlıq-quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur. **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Göygöl rayonuna daim diqqət və qayğısı sayəsində və Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidovun apardığı məqsədyönlü, səriştəli, ardıcıl və planlı tədbirləri nəticəsində, qədirbilən Göygöl sakinlərinin qurub-yaratmaq əzmi daha da güclənmiş, bu isə öz bəhrəsini vermişdir.** Aqrar sahənin inkişafına yönəldilmiş Dövlət proqramlarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün ölkə rəhbərliyi tərəfindən yaradılmış əlverişli şəraitin nəticəsi olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının traktor, kombayn, digər kənd təsərrüfatı maşın və avadanlıqları ilə, toxum, gübrə və pestisidlərlə təminatı yaxşılaşdırılmışdır. Eyni zamanda, istehsal və xidmət sahələri genişləndirilmiş, yeni sosial obyektlər tikilmiş, abadlıq-quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş və ümumilikdə iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin hər bir səfəri qədirbilən Göygöl sakinləri tərəfindən böyük rəğbətlə qarşılanır. Ölkə Prezidenti cənab İlham Əliyevin növbəti səfəri zamanı Göygöl rayonunda ən müasir standartlara cavab verən Dövlət Bayrağı Meydanında, Göygöl Olimpiya İdman Kompleksində, füsunkar gözəlliyə malik Heydər Əliyev parkında, möhtəşəm Heydər Əliyev Mərkəzində, Gənclər Mərkəzində, Kinoteatr və Uşaq Əyləncə Mərkəzində, əsaslı şəkildə yenidən qurulmuş Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq "Çiçəkli" Su Elektrik Stansiyasında, 4 saylı körpələr evi-uşaq bağçasında, əzəmətli Qələbə parkında olmuş, öz xeyir-duasını, tapşırıq və tövsiyələrini vermişdir. Bayraq Meydanında 50 metr yüksəklikdə qaldırılmış Dövlət Bayrağı rayonun hər yerindən aydın görünür. Nəfis şəkildə işlənən Dövlət Gerbi kompleksə əlavə gözəllik qatır. Müasir səviyyədə inşa olunan bu kompleks indi rayonun ən gözəl yerlərindən birinə çevrilib. Rayon sakinləri ilə yanaşı, paytaxtdan və ətraf bölgələrdən bura gələn qonaqlar ilin bütün fəsillərində burada istirahətdə olur, böyük təəssüratla ayrılırlar. Göygöl Olimpiya İdman Kompleksində müasir üzgüçülük hovuzu da quraşdırılıb. Kompleksdə güləş, universal idman zalı, şahmat və boks zalları, məşqçilər üçün otaqlar, konfrans zalı və digər zəruri otaqlar mövcuddur. Müxtəlif idman tədbirlərinin keçirilməsi üçün hər cür şəraitlə təchiz edilən universal idman zalı 780 tamaşaçı üçün nəzərdə tutulub. Kompleksin açıq futbol stadionu da var. Yaraşıqlı Heydər Əliyev Mərkəzində ümummilli liderin uşaqlıq və gənclik illərinə aid şəkillər, həmçinin, müxtəlif dövrlərdə çəkilən digər fotolar böyük maraqla qarşılanır. Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün akt və konfrans zalları yaradılıb. Gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün burada rəsm, xalçaçılıq, tikiş dərnəkləri fəaliyyət göstərəcək. Mərkəzdə, həmçinin elektron kitabxana, fotostudiya, şahmat zalı, muğam otağı və 3D kinoteatr da var. Rayon gənclərinin fəallığının artırılması, onların intellektual və yaradıcılıq potensialının üzə çıxarılması məqsədilə yaradılan mərkəz indi gənclərin ən çox üz tutduqları məkandır. Buradakı internet-kafe, diskoteka və digər əyləncə növləri və stolüstü oyunlar gənclərin asudə vaxtlarının səmərəli keçirmələrinə xidmət edir.



Əsaslı şəkildə yenidən qurulmuş Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq "Çiçəkli" Su Elektrik Stansiyasında yeni avadanlıq quraşdırılıb, stansiyanın turbin zalı, üçmərtəbəli idarəetmə və inzibati binası da müasir səviyyədə qurulub. Stansiyada hər birinin gücü 1 MVt olan 3 hidroturbin və 3 hidrogenerator quraşdırılıb. Yenidənqurma işləri çərçivəsində stansiyada 35/6/0,4 kV-luq yarımstansiyalar yaradılıb və elektrik verilişi xətləri çəkilib. Stansiyanın su hövzəsinin tutumu 153 min kubmetr, bəndinin hündürlüyü 10, uzunluğu 134, qaşının eni 5, dibinin eni isə 60 metrdir. Burada suburaxma qabiliyyəti saniyədə 65 kubmetr olan sutullayıcı, suburaxma qabiliyyəti saniyədə 10 kubmetr olan suqəbuledici quraşdırılıb. Stansiyanın derivasiya kanalının en kəsiyi 5 kvadratmetr, uzunluğu isə 3800 metrdir. Burada, həmçinin uzunluğu 500 metr, diametri 1600 millimetr olan boru quraşdırılıb. Qeyd etmək lazımdır ki, "Çiçəkli" Su Elektrik Stansiyası iqtisadi və sosial cəhətdən olduqca əhəmiyyətlidir. İldə 20 mln. kVt-saat elektrik enerjisi istehsal etmə gücünə malik olan bu stansiya rayonun tələbatının 15%-ni, Göygöl şəhərinin tələbatının isə 75%-ni ödəyəcək. Stansiyanın tikintisində 80 işçi çalışıb. Ərazidə müasir işıqlandırma sistemi quraşdırılıb, abadlıq işləri aparılıb və yaşıllıq zolaqları salınıb. Burada 20 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Əsaslı şəkildə yenidən qurulan 4 saylı körpələr evi-uşaq bağçasının ikimərtəbəli binasında 100 uşaq yerlik bu müəssisədə oyun, yemək və yataq otaqları, tədris otağı, musiqi zalı, mətbəx, həkim otağı və anbarlar yaradılıb. Otaqların hamısı zəruri inventar və avadanlıqla təchiz edilib. Binada uşaqların istirahəti və əyləncəsi üçün hərtərəfli şərait yaradılıb ki, bu da balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı üçün olduqca əhəmiyyətlidir. Bundan başqa, bu müəssisədəki şərait uşaqların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması məsələsində mühüm rol oynayacaq. Qeyd etmək lazımdır ki, burada yaradılan şərait uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin məntiqi nəticəsidir. Körpələr evi-uşaq bağçasının həyətində geniş abadlıq işləri aparılıb, balacaların əylənməsi üçün attraksionlar quraşdırılıb. Bəli, Azərbaycan dövləti gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin təşkili, onların sosial müdafiəsinin gücləndirilməsi, əsl vətənpərvər və sağlam yetişməsi istiqamətində mühüm layihələr icra edir. Göygöldəki 4 saylı körpələr evi-uşaq bağçasında yaradılan şərait bu istiqamətdə görülən işləri əyani surətdə təsdiq edən nümunələrdən biridir.

Əsaslı şəkildə qurulmuş möhtəşəm Qələbə parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, dekorativ bəzək və gül kolları əkilib, oturacaqlar qoyulub. Parkın rayonun mərkəzində yerləşməsi onun özəlliyini daha da artırır. Parkda istirahətin yüksək səviyyədə təşkili üçün geniş imkan yaradılıb. Bu parkın yaradılması ilə rayon sakinlərinin sevə-sevə üz tutduqları istirahət məkanlarının sayı daha da artıb. Parkın yaradılması zamanı balacalar da diqqətdən kənarda qalmayıb. Burada uşaqların asudə vaxtının səmərəli təşkili üçün əyləncə kompleksi yaradılıb, attraksionlar quraşdırılıb. Parkda Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılan abidə kompleksi də əsaslı şəkildə təmir olunub. Ümumi sahəsi iki hektar olan parkda fəvvarələr quraşdırılıb, istirahət guşələri yaradılıb. Parkda kafe də fəaliyyət göstərir. Bəli, yeni parkların, istirahət məkanlarının yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də turizm bölgəsi kimi böyük şöhrət qazanmış Göygölü daha da müasirləşdirir. "Qələbə" parkının yenidən qurulması rayonda bu istiqamətdə reallaşdırılan layihələrin bir hissəsidir.

Hazırda da Göygöl şəhərində abadlıq və quruculuq işləri səngimir. Belə ki, Göygöl şəhərinin Fərman Kərimzadə küçəsində 1 və Qızılqaya qəsəbəsində yerləşən 5 çoxmənzilli binaların dam örtüyü dəyişmiş və həmin binalarda və o cümlədən 21-ci məhəllədə və M.Ə.Rəsulzadə küçəsində yerləşən 2 mərtəbəli binaların fasad hissələri suvanaraq rənglənmiş, giriş qapıları və blok pəncərələri dəyişdirilmişdir. Dövlət Mənzil Fonduna aid olan 7 yaşayış mənzili təmir olunmuşdur. Zurnabad kənd uşaq bağçası əsaslı təmir edilmişdir. Göygöl şəhərinin Ordubadi, Mikayıl Müşfiq və İsrafil Məmmədov küçələrinə asfalt örtük salınması üçün işlərə başlanılmış, hazırda 1000 kvadratmetr səkilərə, yol hissəsinə isə 10240 kvadratmetr asfalt örtük salınmış, 1571 p/m suötürücü arxlar düzülmüşdür. 3 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən 18 km uzunluğunda Bakı-Qazax magistral avtomobil yolunun 353 km-dən - Çaylı-Pənahlılar-Dozular kəndarası avtomobil yolunda əsaslı təmir işləri aparılaraq yola asfalt örtük salınmışdır.

Rayonda ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə ağacəkmə kampaniyası davam etdirilmiş, meşə dolaylarında göyrüş və qoz cinsindən olan tinglər 33120 ədəd, şəhər, qəsəbə və kəndlərdə, park və xiyabanlarda, yol kənarlarında 2159 ədəd müxtəlif dekorativ ağac və kollar əkilmişdir.

Rayonda 2018-ci ilin 9 ayı ərzində 578 yeni iş yerləri açılmışdır, bunun da 348-i daimidir. 2018-ci ilin 9 ayı ərzində iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 131 milyon 351,3 min manat, ondan 85 milyon 80.7 min manatı (64.8%) istehsal sahələrini, 46 milyon 270.8 min manatı (35.2%) xidmət sahələrini təşkil etmiş, adambaşına 2069.2 manat dəyərində məhsul istehsal edilmişdir. Aqrar sahənin inkişafına göstərilən dövlət dəstəyinin nəticəsi olaraq 2018-ci ildə 1489 nəfər kənd təsərrüfatı məhsulları istehsalçılarına 8280.95 hektar əkin və çoxillik əkmələrə görə dövlət büdcəsindən 612 min 410 manat yardım verilmişdir. Hazırda rayon ərazisində 6700 hektar şum aparılmışdır və işlər davam etdirilir.

Heyvandarlıq sahəsində yüksək göstəricilərə nail olmaq məqsədilə heyvandarlıqla məşğul olan hüquqi və fiziki şəxslərə dəyərinin 50%-ni ödəmək şərti ilə 7 baş cins mal-qara satılaraq cins mal-qaranın sayı 243 başa çatdırılmışdır. Eyni zamanda, 651 baş mal-qara süni yolla mayalandırılmış, 268 baş cins bala alınmışdır. Rayonda iribuynuzlu mal-qaranın sayı 20678 başa, xırdabuynuzlu mal-qaranın sayı 161398 başa çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə süd istehsalı 38.8 ton, ət istehsalı 1157.4 ton, yumurta istehsalı 11 min ədəd artmışdır.



Əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə 126 ədəd subartezian quyularında cari, 4 subartezian quyularında isə əsaslı təmir işləri aparılmışdır. Qapalı boru şəbəkəsinin 3,0 km, beton kanalların isə 7 km hissəsi təmir edilmiş, daşqınların qarşısını almaq məqsədilə çay məcrasında 197 min kubmetr həcmində təmizləmə işləri görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən rayon ərazisində nəzərdə tutulmuş 4 ədəd subartezian quyularından Qızılqaya qəsəbəsində 1 ədədi, Hacıməlik qəsəbəsində 1 ədədi və Yeni Qızılca kəndində 1 ədədi istifadəyə verilmiş, Balçılı kəndində isə 1 ədəd subartezian quyusu qazılmış və ayın sonuna istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Rayonda sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq hüquqi şəxslərin sayı 578 vahidə çatmış, hesabat dövründə aqrar sahənin inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 17 sahibkara 190 min manat məbləğində güzəştli kredit verilmişdir.

Cari ilin 9 ayı ərzində rayon büdcəsinin gəlirləri (dotasiyasız) 3 milyon 283 min manat proqnoza qarşı 4 milyon 640 min manat və ya 141.3 %, büdcənin xərcləri isə 4 milyon 465 min 560 manat proqnoza qarşı 3 milyon 732 min 304 manat və ya 83.5% icra edilmişdir.

Əhalinin aztəminatlı təbəqəsinin, sosial müdafiəyə ehtiyacı olan insanların maddi rifah halının yaxşılaşdırmaq məqsədilə 2018-ci ilin 9 ayı ərzində 751 ailəyə ünvanlı dövlət sosial yardım təyin olunmuş, 8595 nəfər əmək və digər sosial pensiyaçılara 14 milyon 967,6 min manat pensiya və müavinət ödənilmiş, rayon üzrə orta aylıq pensiyanın məbləği 189 manat 44 qəpik təşkil etmişdir. Əhalinin məşğulluğunu təmin etmək və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə 2018-ci ilin 9 ayı ərzində 1120 nəfər işaxtaran Məşğulluq Mərkəzində qeydiyyata alınmış, onlardan 264 nəfəri münasib iş yerləri ilə təmin olunmuşdur.

Əhalinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə 2018-ci ilin 9 ayı ərzində elektrik təsərrüfatında 136 min 650 manat dəyərində təmir-bərpa quraşdırma işləri aparılmış, 48 ədəd müxtəlif güc transformatorları təmir edilmiş, qəza vəziyyətində olan 94 ədəd elektrik dayaqları yenisi ilə əvəz olunmuşdur. Rayonun Pənahlılar, Üçtəpə, Xaqani, Əzgilli, Yeni Zod, Aşıqlı kəndlərində, Göygöl şəhərinin yeni yaşayış massivində hava elektrik verilişi xətləri özünüdaşıyan izolyasiyalı naqillərlə əvəz olunmuş, 437 ədəd dayaq basdırılaraq ümumilikdə 16 km uzunluğunda xətt çəkilmişdir. Rayon üzrə istehlak olunan elektrik enerjisinin həcmi 69 milyon 971 min kvt saat təşkil etmiş, ödəniş 94,2% yerinə yetirilmişdir.

Əhalinin təbii qaz təchizatını yaxşılaşdırmaq məqsədilə hesabat dövründə 90 ədəd qaz tənzimləyici şkaflar və 245 ədəd siyirtmələr əsaslı təmir edilmişdir. Rayonun Şəhriyar və Kərəmli kəndlərinə yeni qaz xətləri çəkilərək abonentlər təbii qazla təmin edilmiş, tikintisi davam etdirilən Qızılca, Yeni Qızılca, Sərkar, Haçaqaya kəndləri və Bəhrəmbağ qəsəbəsində işlər tamamlanmaq üzrədir, yaxın vaxtlarda yaşayış məntəqələrinə təbii qazın verilməsi nəzərdə tutulmuşdur. Çaykənd kəndində ümumilikdə 20900 p/m qaz xətti çəkilmiş və hazırda işlər davam etdirilir. Mixaylovka, Qırıxlı və Quşqara kəndlərində abonentlərin qaz təminatının yaxşılaşdırılması məqsədilə kiçik diametrli daşıyıcı qaz xətləri böyük diametrli xətlərlə əvəz edilmişdir.

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə magistral su kəmərlərində və su mənbəyində təmizləmə işləri aparılmış, şəhərdaxili su şəbəkəsində uzunluğu 160 p/m polietilen boru, Ağdağ qəsəbəsində 250 p/m polad boru yenisi ilə, Aşıqlı kəndinə gedən 100 p/m-lik polad boru yeni polietilen boru ilə əvəz edilmiş, 1 ədəd su nasos stansiyasında təmir işləri aparılmış, 85 yerdə su axıntısının, 130 yerdə isə kanalizasiya tutulmalarının qarşısı alınmışdır.

Vətəndaşlara göstərilən rabitə xidmətini yaxşılaşdırmaq məqsədilə Hacıməlik qəsəbəsində istismarda olan 384 nömrəlik EATS-ində yeni stansiya avadanlıqları quraşdırmaqla tutumu 192 nömrə artırılaraq 576 nömrəyə çatdırılmışdır. Ümumilikdə rayonun müxtəlif yaşayış məntəqələrində 103 ədəd yeni telefon çəkilişi aparılmışdır. Əhaliyə genişzolaqlı sürətli internet xidməti göstərmək məqsədilə rayonun yaşayış məntəqələrində DSLAM tipli internet avadanlıqları qurulmaqla internet istifadəçilərinin sayı 424 nəfər artaraq 4562 nəfərə çatdırılmışdır.

2017-2018-ci tədris ilində rayonun orta ümumtəhsil məktəblərinin IX sinfini 756 nəfər şagird, XI siniflərini isə 636 nəfər şagird bitirmiş, onların 605 nəfəri adi, 31 nəfəri isə fərqlənmə attestatı, IX siniflər üzrə isə 751 nəfər adi, 5 nəfər isə fərqlənmə attestatı almışdırlar. Ali və orta ixtisas məktəblərinə qəbul olmaq üçün sənədlərini təqdim edən 451 nəfər məzunlardan 51 nəfəri orta ixtisas təhsil müəssisələrinə, 215 nəfəri isə ali məktəblərə qəbul olaraq tələbə adını qazanmışdırlar. Bunlardan 33 nəfəri 500-dən yuxarı, 17 nəfəri isə 600-dən yuxarı bal toplamışdır.

Tibbi xidmətin yaxşılaşdırılması istiqamətində Göygöl Mərkəzi Rayon Xəstəxanası əsaslı və Qarabulaq tibb məntəqəsi cari təmir edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyəsinə əsasən rayon əhalisi ümumi profilaktik müayinələrə cəlb edilərək 38575 nəfər tibbi müayinədən keçirilmiş, onlardan 9442 nəfər ambulator, 416 nəfər stasionar müalicəyə, 84 nəfər cərrahi müalicəyə cəlb olunmuş, 39 nəfər daha ixtisaslı tibbi yardım almaq üçün Bakı şəhərinə göndərmişdir. Hesabat dövründə yoluxucu xəstəliklərə qarşı 4040 nəfər peyvənd edilmiş, 9520 uşaq dispanserizasiyadan keçirilmişdir.

Rayonda 41 kitabxana, 19 klub tipli müəssisə, 2 muzey, 2 musiqi məktəbi, 31 yerli əhəmiyyətli tarixi abidə vardır. Hesabat dövrü kitab fondu 311678, elektron kataloq kitab fondu isə 759 nüsxə təşkil etmişdir. Yerli əhəmiyyətli tarixi abidələrin, mədəniyyət evlərinin, klub və kitabxanaların əksəriyyətinin əsaslı və cari təmirə ehtiyacı vardır.

2018-ci ilin 9 ayı ərzində rayona 75 min nəfər daxili və xarici turist gəlmişdir.

Rayonda əhali arasında idmanın kütləviliyinin artırılmasına diqqət artırılmış, gənclər üzrə yerli tədbirlərin sayı 35, respublika tədbirlərin sayı 13, idman sahəsində yerli tədbirlərin sayı 18, respublika tədbirlərin sayı 33 olmuşdur. Gürcüstan Respublikasında Taekvondo idman növü üzrə uşaq, yeniyetmə və böyüklərarası Beynəlxalq turnirdə iştirak edən 14 idmançımızdan 5 nəfəri 1-ci yeri, 5 nəfəri 2-ci yeri, 3 nəfəri 3-cü yeri qazanmışdır. Rayon icra hakimiyyəti başçısının Aparatında vətəndaşların təsdiq edilmiş cədvəl əsasında elan edilmiş günlərdə və saatlarda qəbul edilməsi müntəzəm təşkil olunur, yerlərdə səyyar qəbul keçirilir, burada səsləndirilən təkliflərin bir hissəsi operativ yerindəcə həll olunur, bəzi müraciətlə icrası ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Tam əminliklə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına, eyni zamanda quruculuq-abadlıq işlərinin aparılmasına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, Göygöl rayonu ənənəsinə sadiq qalaraq Azərbaycanın inkişaf və tərəqqisinə öz layiqli töhfəsini verəcəkdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**







